XALQ QƏZETİ 23 iyun 2022-ci il, cümə axşamı S.9.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 233** **Bakı şəhəri, 21 iyun 2022-ci il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 aprel tarixli 156 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 4, maddə 502) ilə təsdiq edilmiş "Pedaqoji fəaliyyətlə məşğul olma Qaydası"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 2.2-ci bənddə "və 3.3-cü bəndlərinin tələbləri" sözləri "bəndi" sözü ilə əvəz edilsin.

**2.** 3.3-cü bənddə "3.2-ci bəndində göstərilən halda" sözləri "4.2-ci bəndinin birinci cümləsinə uyğun olaraq müəllimlərin işə qəbulu müsabiqəsinin nəticəsinə əsasən işə qəbul olunmuş" sözləri ilə əvəz edilsin.

**3.** 4.1-ci bənddə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramları (kurikulumları)"nın 6.3-cü" sözləri "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları"nın 6.2-ci" sözləri ilə əvəz edilsin.

**4.** 4.2-ci bəndə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

"Müsabiqəyə buraxılan ali təhsilin bakalavriat səviyyəsi üzrə ixtisasların siyahısı hər il müsabiqədən əvvəl Nazirliyin rəsmi internet səhifəsində yerləşdirilir.".

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***